## MÜƏLLİMLİKLƏ ALİMLİYİ ÖZÜNDƏ BACARIQLA BİRLƏŞDİRƏN İNSAN

Mən, Abdullah Qahramanı 2004-ci ildən tanıyıram. Abdullah Qahraman 2004-2007- ci illərdə BDU-nun ilahiyyat fakültəsində mənim müavinim olaraq çalışmışdır. 1987-1991- ci illərdə Türkiyənin Mərmərə Universitetində təhsil alan Abdullah Qahraman orada Saleh Tuğ, Xeyrəddin Karaman, Bəkir Topaloğlu, Yaşar Nuri Öztürk, Cəlal Erbay, İbrahim Kafi Dönməz kimi görkəmli alimlərdən dərs almış, islam elmlərinə, xüsusilə fiqhə yaxşı yiyələnmişdir. İslam hüququ üzrə magistr və doktorluq dissertasiyaları müdafiə etmiş Abdullah Qahraman tezliklə bir islamşünas kimi qardaş Türkiyədə tanınmışdır. 2004-cü ildə dosent doktor Təyyar Altıkulac vasitəsilə Abdullah Qahramanla tanış olduqda o elə ilk baxışdan mənə müsbət təsir bağışladı. Mən onun çox mehriban, səmimi və qılıqlı bir adam olduğunu sezdim. Sonralar mən onunla yaxından dostlaşdım və bu dostluq indi də davam edir.

Hər şeydən əvvəl onu qeyd etmək istəyirəm ki, Abdullah Qahraman yaxşı müəllimdir. O, tələbələrlə tez dil tapan, auditoriyanı tez ələ ala bilən bacarıqlı bir pedaqoqdur. Pedaqoji fəaliyyətdə Abdullah bəylə mənim bir çox cəhətlərim uyğun gəlir. Tələbənin qayğısına qalmaq, onunla ünsiyyət qurmaq, onun daxili aləminə nüfuz edə bilmək, qiymət məsələsində tələbənin mənafeyi mövqeyindən çıxış etmək, tələbə ilə bir şəxsiyyət kimi davranmaq, onun istək və arzularını imkan daxilində nəzərə almaq hər bir müəllimin vəzifəsi, peşə borcudur. Lakin təəssüf ki, bu ümdə keyfiyyətlər müəllimlərin hamısında toplu şəkildə nəzərə çarpmır. Abdullah bəydə isə bu keyfiyyət kompleks şəkildə mövcuddur. Buna görə də o qısa bir müddət ərzində BDU ilahiyyat fakültəsi tələbələrinin hüsn- rəğbətini qazandı, onların sevimlisinə çevrildi.

Abdullah bəy eyni zamanda qüvvətli alimdir. Onun islam hüququ, islam hüquq fəlsəfəsi, islam hüquq tarixi sahəsində apardığı araşdır-malar həm qardaş Türkiyədə, həm də Azərbaycanda islamşünasların

geniş rəğbətini qazanmışdır. Abdullah bəy islam və qadın mövzusunda da maraqlı yazılar müəllifidir.

Abdullah bəy Bakıda fəaliyyət göstərdiyi üç il ərzində cəfəri məzhəbi fiqhi ilə də maraqlanmış, öz mühazirələrində şiə fiqhinə geniş yer ayırmış, fiqh üsulunun və füruunun tədrisində beş məzhəbin prinsiplərini əsas götürmüşdür ki, bu da, zənnimcə, islam hüququnun dolğun, əhatəli şəkildə öyrənilməsində ən ümdə məsələdir. Onun Azərbaycan dilində nəşr olunmuş «Fiqh üsulu» (Bakı, 2007) kitabı bu baxımdan çox faydalı bir dərslikdir. Onu da qeyd etmək istəyirəm ki, Adbullah bəy mənimlə birlikdə islam məzhəblərinin yaxınlaşdırılması barəsində ayrıca məqalə yazmış və bu məqalə Azərbaycanda geniş maraq doğurmuşdur.

Abdullah bəy Bakıda yaşadığı müddət ərzində yerli camaatla qaynayıb qarışmış, necə deyərlər bakılılaşmışdır. O, ölkəmizin dini-ictimai həyatında fəal iştirak etmiş, kütləvi informasiya vasitələrilə islam dini barəsində maraqlı çıxışlar etmiş, respublikamızın müxtəlif bölgələrində keçirilən dini tədbirlərə müntəzəm olaraq qatılmışdır.

Abdullah bəy həm də yaxşı natiqdir. Bakıda Peyğəmbərimizin (s.ə.s) mövludu, müxtəlif dini mövzularda keçirilən konfranslarda yüksək bəlağət, gözəl diksiya ilə etdiyi alovlu çıxışlar onu dinləyənlərin indiyə qədər qulağındadır.

Abdulla bəyin gözəl ailəsi var. Peyğəmbərimizin buyurduğuna görə, üç qız atası cənnətlikdir. Abdullah bəy isə dörd qız, bir oğlan atasıdır.

Mən dostum Abdullah bəyi bağrıma basıb öpür, ona uzun ömür, möhkəm can sağlığı, ailə səadəti, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Vasim Məmmədəliyev**
**BDU- nun İlahiyyat fakültəsinin dekanı,**
**akademik, əməkdar elm xadimi**